UOT94

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İNGİLTƏRƏ VƏ RUSİYANIN ASİYA SİYASƏTİ HAQQINDA BİR OSMANLI ARXİV SƏNƏDİ

**Zülfiyyə VƏLİYEVA ÖNLEN***

***Açar sözlər:****Osmanlı İmperiyası, İran, Əfqanıstan, Rusiya, İngiltərə, Asiya siyasəti, arxiv sənədləri.*

**Giriş**

Qərb dövlətlərinin və Rusiyanın Orta Şərqdə, Mərkəzi və Ön Asiyada yürütdüyü siyasətin tarixi bir neçə yüz il əvvələ, kapitalist münasibətlərinin inkişaf etdiyi dövrə qədər gedib çıxır. XX əsrin əvvəllərində də İngiltərə ilə Rusiyanın siyasi və iqtisadi maraqları yuxarıda qeyd etdiyimiz geniş arealda toqquşurdu. Kapitalist sənayesinin inkişafı ilə neftin əhəmiyyəti artırdığı üçün Azərbaycan ərazisi, eləcə də Hindistan yolu üzərindəki Mərkəzi Asiya dövlətləri, xüsusilə də Əfqanıstan inkişaf etmiş Avropa dövlətlərinin maraq dairəsinə daxil olmağa başlamışdı. Bu dövlətlərin neftlə zəngin əraziləri və Hindistanın maddi sərvətlərini istismar edə bilməsi üçün regiondakı siyasi hakimiyyəti öz nəzarətləri altında keçirməsi vacib məsələ idi. Məhz bu məqsədlə İngiltərə və Rusiya Mərkəzi Asiya ərazisində, indiki Özbəkistan və Əfqanıstan coğrafiyasında öz mövqelərini gücləndirməyə və yerli xanları, əmirləri nəzarətləri altına almağa səy göstərirdi.

İngiltərə və Rusiyanın regionda yürütməyə çalışdığı siyasət Əfqanıstanı öz ərazisi hesab edən İran şahının və İslam dünyasının məsuliyyətini daşıyan İslam Xəlifəsinin - Osmanlı Sultanı II Əbdülhəmidin daim nəzər diqqətində olmuşdur. Osmanlı dövlətinin məsul şəxsləri Avropa dövlətlərinin məqsədləri haqqında tez-tez Osmanlı hökmdarını xəbərdar edir və aparılan bu işğalçı siyasətə qarşı lazımi tədbirlərin görülməsi üçün öz tövsiyələrini verirdilər (1, s. 87).

İngiltərə və Rusiyanın işğalçı siyasətinə qarşı Osmanlı dövlətinin mövqeyinin dərk edilməsi baxımından dövrün arxiv mənbələrinin, diplomatik yazışmalarının tədqiq edilməsi mühüm əhəmiyyət kəsb edir. Elə bu səbəblə qeyd olunan arxiv materialı tərcümə və analiz edilərək Azərbaycan elmi ictimaiyyətinin nəzər-diqqətinə təqdim olunmuşdur.

**I. Arxiv sənədi haqqında qısa məlumat:** İngiltərə və Rusiyanın Mərkəzi Asiya xalqları (sənəddə ifadə edildiyi kimi – "İslam Asiyası") ilə bağlı siyasətini əhatə edən arxiv materialı Osmanlı dövlətinin Vaşinqton səfiri Əli Fərrux bəy tərəfindən 3 fevral 1901-ci ildə yazılmış və o dövrün Osmanlı Sultanı olan II Əbdülhəmidə (1876-1909) göndərilmişdir. İlk dəfə Ankarada 2010-cu ildə Türkiyə Respublikasının Baş Nazirliyinin nəzdindəki Osmanlı Dövlət Arxivləri tərəfindən "Osmanlı İran ilişkileri" adlı əsərdə transliterasiya edilərək nəşr edilmişdir (2, s. 336-337). Sənədin dili osmanlıcadır, digər osmanlı arxiv sənədləri ilə müqayisədə daha sadə bir üslubda yazılması ilə diqqəti çəkir. Müasir Azərbaycan dilinə uyğun şəkildə sadələşdirilərək tərcümə edilən sənəd məqaləyə əlavə edilmişdir.

Qeyd etməliyik ki, burada bir neçə məsələ diqqətəlayiqdir. Belə ki, bir tərəfdən arxiv sənədində Rusiya, İngiltərə və Osmanlı dövlətinin Azərbaycan, İran və Əfqanıstan coğrafiyasında apardıqları siyasət izah edilir, digər tərəfdən isə 400 il keçməsinə baxmayaraq şiəliyin aradan qaldırılmasında Sultan Səlimin apardığı siyasətin əhəmiyyəti təkrar qiymətləndirilir və "İslam Asiyası"nın birliyinin məzhəbi fərqliliklərin aradan qaldırması ilə mümkün olacağı vurğulanır. Arxiv materialında diqqətimizi çəkən məsələlər aşağıdakı alt başlıqlarda öz əksini tapmış və geniş izah edilmişdir.

**II. Əfqan əmiri Əbdürrəhman xanın siyasi fəaliyyətinin arxiv sənədində şərhi:** Osmanlı hökmdarı üçün əfqan əmiri Əbdürrəhman xanın regionda tutduğu mövqe xüsusi əhəmiyyət daşıyırdı. Belə ki, Osmanlı dövləti II Əbdülhəmid zamanında Rusiya və İngiltərənin Asiya ölkələrində

* *Tarix üzrə fəlsəfə doktoru, AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Türkiyə tarixi və iqtisadiyyatı şöbəsi* *veliyevaz@gmail.com*

yeritdiyi siyasətdə İngiltərənin tərəfdaşı olaraq Rusiyanın regiondan çıxarılması üçün diplomatik səylər göstərirdi (1, s. 85-89). Bu məqsədlə İngiltərə ilə siyasi əməkdaşlıq edərək regiondakı siyasi fiqurları onun lehinə yönəltmək istəyirdi. Bu fiqurlardan biri də əfqan əmiri Əbdürrəhman xan idi. Elə bu səbəblə də o, Əfqanıstan ərazisində daxili mübarizələrdə ingilislər tərəfindən dəstəklənirdi və onların dəstəyi ilə 11 avqust 1880-ci ildə əfqan əmiri təyin olunmuşdu. “Dəmir Əmir” (3) adlanan Əbdürrəhman xan xarici siyasətdə İngiltərədən asılılığı qəbul etməklə ingilislərin Əfqanıstandan çıxmasına nail olmuşdu. Əfqan xalqının tarixində əhəmiyyətli rol oynayan Əbdürrəhman xan, ordunu yenidən nizama salmış, bir çox tayfanı - şinvariləri, gilzayları, hezaraları itaət altına almış və Əfqanıstanda hakimiyyətini gücləndirməyi bacarmışdı (4, s. 103-107; 1, s. 78; 5, s. 129-135; 6, s. 163). Əsas məqsədi Hindistan olan İngiltərə isə Əfqanıstan ərazisini tərk etsə də regiondakı hegemonluğunu qoruyub saxlamaq üçün uzun müddət bu coğrafiyada siyasi mübarizəsini davam etdirmişdir.

İngiltərə və Rusiyanın Əfqanıstandakı və ümumiyyətlə regiondakı siyasi məqsədləri və fəaliyyətləri baxımından əfqan əmirinin İngiltərəyə səfəri Osmanlı hökmdarının diqqətini çəkmişdi. Elə buna görə Vaşinqton səfiri Əli Fərrux bəy də məktubunu Əbdürrəhman xanın Londonda öz əsərini nəşr etdirməsi xəbəri ilə başlayır. Lakin əsl məqsədi İngiltərə və Rusiyanın regiondakı məramını izah etmək olduğu üçün burada onun əsəri haqqında məlumat vermir. Bunu da qeyd etməliyik ki, Əbdürrəhman xanın da əsl məqsədi kitab nəşr etdirmək deyildi. Onun əsas məqsədi İngiltərənin Əfqanıstandakı siyasi məramlarını dərk etmək idi. Əfqan əmiri məhz bu səbəblə yaxın adamlarından birini kitab nəşri bəhanəsi ilə Londona göndərmişdi və burada “The Life of Amir Abdur Rahman (I-II)” (3) adlı əsərini 1900-cü ildə nəşr etdirmişdi (6, s. 163).

**III. Rusiya və İngiltərənin “İslam Asiyası”ndakı intriqa fəaliyyətləri:** Gizli məlumatların yer aldığı bu arxiv materialında “İslam Asiyası”nda (sənəddə bu ifadə ilə Əfqanıstan, Özbəkistan və İran əraziləri nəzərdə tutulur – Z.V.) Rusiya və İngiltərənin İranı parçalamaq məqsədi daşıdığı və Osmanlı dövləti ilə regiondakı digər müsəlman dövlətlərini bir-birinə düşmən etmək üçün intriqalarla məşğul olduqları qeyd olunur. İngiltərə və Rusiyanın Asiyada yeritdiyi siyasət sadə bir dillə Osmanlı padşahına izah edilir. Məktubda qeyd olunur ki, Rusiya və İngiltərənin Asiyadakı ortaq maraqları müsəlman xalqlarını həm bir-birindən, həm də Xilafətdən, yəni Osmanlı dövlətindən soyutmaq və uzaqlaşdırmaqdır. Məhz bu səbəblə Rusiya İranı Osmanlı dövlətindən, İngiltərə isə Əfqanıstanı İrandan uzaqlaşdırmağa səy göstərirdi (2, s. 336-337).

İmperialist dövlətlərin siyasi və iqtisadi maraqları üçün bir çox regionda intriqa fəaliyyətlərindən çəkinmədikləri tarixdən də çox yaxşı məlumdur. Tədqiq etdiyimiz arxiv materialında da əfqan əmiri xaricində Rusiya və İngiltərənin regiondakı dövlətləri və xalqları bir-birinə düşmən etmək üçün bir çox yalan xəbər yaydıqlarının qeyd olunması da təsadüfi deyildir. Bu yalanları yaymaqla regiondakı əhəmiyyətli siyasi-ictimai xadimləri öz nüfuz dairələrinə çəkməyi bacarır və onların vasitəsi ilə siyasi əməllərini icra edə bilirdilər. İngiltərənin əfqan əmiri ilə qurduğu münasibətlərdə də bənzər hadisələri müşahidə etmək mümkündür.

Məktubdan da anlaşıldığı üzrə, bu yalanlardan biri İran şahı Osmanlı sarayına getdiyi bir vaxtda Rusiya tərəfindən əfqan əmirinə söylənmişdir. Ona Osmanlı dövlətinin əsas məqsədinin İranı parçalamaq olduğu və bu məramını da Rusiyaya təklif etdiyi, lakin Rusiyanın İran əleyhinə bu fəaliyyəti qəbul etmədiyi bildirilmişdir. İran şahını bu yalana inandıran isə Rusiyaya xidmət etdiyi üçün gözdən düşən və Rusiyanın intriqası ilə təkrar Sədrəzəm təyin edilən Əli Əsgər xan olmuşdur. İngilislər də bu münaqişədən istifadə edərək Əfqanıstan əmirinə başqa bir yalan uydurub söyləmişdir. Bu yalana görə isə Rusiya İrana Herat və ətrafını vəd etdiyi üçün İran şahı İngiltərənin icazəsini almaq məqsədi ilə gəlirmiş. Lakin İngiltərə nə onun arzusunu qəbul etmiş, nə də şahın İngiltərəyə gəlməsinə icazə vermişdir. İngiltərənin əfqan əmirinə söylədiyi yalana görə isə Rusiya ilə Osmanlı dövlətinin məqsədi eynidir: onların hər ikisinin niyyəti İranı parçalamaqdır. Osmanlı dövləti Azərbaycanın bir hissəsini, Rusiya isə Xəzər dənizinin bir hissəsini öz əlinə keçirməyi planlaşdırır (2, s. 337).

Yuxarıda qeyd olunan yalan xəbərlər qarşısında sarsılan və mütəəssir olan “biçarə əfqan əmiri” - Əbdürrəhman xan isə təlaşa düşdüyü üçün öz etibarlı adamları arasından iki nəfəri məsələnin

araşdırılması məqsədilə – birini kitab nəşri bəhanəsi ilə Londona, digərini isə gizlicə Peterburqa göndərmişdir (2, s. 337).

Vaşinqton səfirinin də bildirdiyi kimi bu intriqaların əsl məqsədi hər iki tərəfi (həm İran şahını, həm də Əfqanıstan əmirini) İslam xəlifəsinin - Osmanlı Sultanının müsəlman dövlətlərini parçalamaq niyyəti daşıdığına inandırmaq idi.

**IV. "İslam Asiyası"ndakı siyasi problemlərin həll edilməsində məzhəb fərqliliyinin aradan qaldırılması təklifi:** Bir sıra Osmanlı arxiv sənədlərində sünnilik və şiəlik problemi vaxtaşırı ələ alınmışdır. Hətta diqqəti çəkən bir məsələ də əsrlər keçməsinə baxmayaraq, Şah İsmayıl ilə Sultan Səlimin mübarizəsinin unudulmaması və arxiv sənədlərində tez-tez təkrarlanmasıdır. Tədqiq etdiyimiz bu arxiv materialında da qeyd olunan məsələ vurğulanmışdır. İran və Osmanlı dövlətləri arasındakı əsas problemin məzhəb fərqliliyi olduğu, Sultan Səlim zamanında şiəliyə böyük zərbə vurulmasına baxmayaraq artıq bu zərbənin öz təsirini itirdiyi qeyd olunur. Məzhəbi qarşıdurmanın aradan qaldırılması üçün bəzi tədbirlərin alınmasının zəruri olduğu səfir tərəfindən təklif edilir. İran din xadimlərinin - üləmasının çox ucuz bir məbləğ qarşılığında satın alınması və beləcə "İslam Asiyası"nı birləşdirmək üçün şiəliyə onların əli ilə təkrar zərbə vurulması fikri ortaya atılır (2, s. 337).

**V. Arxiv materialındakı məlumatların müasir hadisələrlə uyğunluğu:** Arxiv materialının diqqətimizi çəkən digər bir tərəfi də verilən məlumatların müasir dövrümüzdəki siyasi hadisələrlə səsləşməsidir. Belə ki, Səfir Əli Fərrux bəy İran şahına "unutduqları və ya heç bilmədikləri "Deli Petro"nun (I Pyotrun) vəsiyyətnaməsinin səkkizinci bəndinin kübar bir şəkildə xatırladılmasını" təklif edərkən bəzi məsələlərə diqqət çəkir. Bu bənddə isə aşağıdakılar qeyd olunur: "İranı addım-addım parçalayıb zəbt etmək üçün heç bir fürsəti əldən verməmək və Fars körfəzini də alıb Suriya vasitəsi ilə Hind və Ağ-dəniz (Aralıq dənizi) ticarətini yenidən canlandırmaq lazımdır". I Pyotrun bu fikirlərini qələmə alan səfir Osmanlı padşahına başa salmağa çalışır ki, "əcəmlərə (iranlılara - Z.V.) təhlükənin açıq-aşkar meydanda olduğu izah edilməlidir. İran şahı boş sözlərə aldanmamalı, digər müsəlman xalqlarla birlikdə Osmanlı dövlətinin – İslam xəlifəsinin bayrağı altında birləşməlidir" (2, s. 337). Səfirin də qeyd etdiyi kimi, "İslam Asiyası" mövcud vəziyyətdən yalnız müsəlman dövlətlərin və xalqların bir-birini dəstəkləməsi ilə xilas ola bilər.

**Nəticə**

Müasir dövrümüzün siyasi hadisələri ilə qismən səsləşən arxiv sənədi Avropa dövlətlərinin öz maraqlar üçün müsəlmanların yaşadıqları regionlarda münaqişə mərkəzləri yarada biləcəklərini və bu yolda siyasi intriqalar yaratmaqdan çəkinməyəcəklərini şərh edir. Eyni zamanda məzhəb problemlərini həll edə bilməyən İslam dünyasının mövqeyinin daim zəif olacağı və ortaq düşmənə qarşı özlərini müdafiə edə bilməyəcəyi qeyd olunur. Yaxın Şərqdə davam etməkdə olan siyasi gərginliklər də əfsuslar olsun ki, tarixdən lazımi dərslərin çıxarılmadığını göstərir. Bu baxımdan, Osmanlı arxiv materialların tərcüməsi və analizi həm bütövlükdə İslam cəmiyyətinin, həm də ayrı-ayrılıqda müsəlman xalqların, eləcə də Azərbaycan xalqının öz milli və dini tarixini, dəyərlərini yenidən dərk etməsində və eyni zamanda müasir dövrümüzün siyasi hadisələrinin qiymətləndirilməsində əhəmiyyət daşıyır.

**ƏLAVƏ**

*Sənədin tərcüməsi:*

**Əfqanıstan əmiri Əbdürrəhman xanın Londonda nəşr etdirdiyi kitabı haqqında Osmanlı dövlətinin Vaşinqton səfiri Əli Fərrux bəyin Osmanlı padşahına yazdığı məktub.**

*Vəli-nemət padişahım*

Əfqanıstan əmiri Əbdürrəhman xanın Londonda bir kitab nəşr etdirdiyi həzrət-i xilafət pənahilərinə (Osmanlı padşahına – Z.V) məlumdur. Bu münasibətlə mütləq surətdə xəbər aldığım mühüm məlumatları qulluğum gərəyi bildirirəm. Bu kitabın nəşr olunması bir bəhanədir. Əbdürrəhman xan iki məqsədlə ən etibarlı məmurunu Londona göndərmişdir. Birincisi, İngiltərə əmirə gizlicə verdiyi məbləğin artırılmasını vəd etdiyi üçün bunun müzakirəsi cərəyan etmişdir. İkinci məqsəd isə Zillullahilərinin (Allahın kölgəsinin - Osmanlı padşahının –Z.V.) müqəddəs haqq və mənfəətlərinin

əleyhinə hazırlanan bir fəsadın təhqiqatı, yəni Asiya məsələsi ilə bağlıdır. Belə ki: Rusiya və İngiltərənin Asiyada müttəfiq olduqları nöqtə müsəlman xalqlarını həm bir-birindən, həm də Xilafətdən soyutmaq və uzaqlaşdırmaqdır. Bunun üçün Rusiya İranı bizdən (Osmanlı dövlətindən – Z.V.) və İngiltərə isə Əfqanıstanı İrandan soyutmağa müvəffəq olmuşdur. Hələ İran ilə Əfqanıstan arasında təəssüflə heç bir münasibət və raddiyə* (7, s. 871) qalmamışdır. İran şahının hümayun-mülükanələrinin (Osmanlı padşahının – Z.V.) ayağına üzünü sürəcəyi bir vaxtda Rusiya tərəfindən bir yalan uydurulmuş və “Dövlət-i Aliyyə İranın parçalanmasını Rusiyaya təklif etdi amma biz rədd etdik!” deyilmişdir. Rusiyaya xidmət etdiyi üçün gözdən düşmüş ikən Rusiya intriqası ilə təkrar Sədrəzəm təyin edilən Əli Əsgər xanın təminatı sayəsində şah bu sözə inanmışdır. Bu dəqiq məlumatdır. Lakin bu söz İran şahına Osmanlı padşahının sarayına çatdığı zamandamı, yoxsa daha sonra söyləndiyini öyrənə bilmədim. Bununla yanaşı qeyd olunan şahın Osmanlı padşahının hüzurundakı əhvalından və sözündən Osmanlı padşahı bu nəticəni çıxara bilər. Lakin ingilislər bu fəsaddan da istifadə edərək Əfqanıstan əmirinə deyiblər ki, “Rusiya İrana Herat və ətrafını vəd etdiyi üçün şah da bizim icazəmizi almağa gəlirdi. Nəinki onun arzusunu, hətta özünü belə İngiltərəyə qəbul etmədik. İranı Herata sövq edən Rusiya da bu haqda Dövlət-i Aliyyə ilə (Osmanlı dövləti ilə – Z.V.) eyni fikirdədir. Bu halda Dövlət-i Aliyyə Azərbaycandan, Rusiyada Xəzər dənizindən bir parça alacaq. Demək ki, İslam Xəlifəsi iki müsəlman dövlətinin bu şəkildə parçalanmasına araçılıq etməkdədir!” Bu da dəqiq məlumatdır. Biçarə əmir üzgün və mütəəssir olub, xeyli təlaşa düşmüşdür. Bu səbəblə öz etibarlı adamları arasından birini kitab nəşri bəhanəsi ilə Londona, digərini isə gizlicə Peterburqa göndərib ki, məsələni tədqiq etsinlər. Məsələ bundan ibarətdir.

İslam dövlətlərinin və xalqlarının xilafət-pənahlarının (Osmanlı dövlətinin – Z.V.) möhtərəm və pak ətəyinə tam bir bəndə kimi sarılacaqları bir zamanda gələn bu xəbərlərin təkrar-təkrar təkzib və qadağan edilməsi Zillullahilərinin (Osmanlı hökmdarının – Z.V.) əlindədir. Doğurdan da İslam birliyi haqqında əzəmətli tacdarların əcdadlarının sərf etdikləri yüksək səylərinin lazımlı dərəcədə səmərə verməməsinin səbəbi İran coğrafiyası olduğu kimi, Asiyadakı İslam xalqlarının arasında mövcud olan ayrılığın səbəblərindən ən mühümü də İran şiəliyidir. Şəhriyarilərinin böyük cədləri Yavuz Sultan Səlim xan həzrətlərinin bu şiə İranını məhv etmək dərəcəsində göstərdikləri ali xidmət təəssüflə addım-addım öz qüvvəsini itirmişdir. Buna baxmayaraq çox ucuz bir məbləğ qarşılığında İran üləmasını asanlıqla satın alıb, qüdrətli, əzəmətli Zillullahilərinin (Osmanlı padşahının – Z.V.) əli ilə şiəliyə şiddətli bir zərbə vurmaq, İslam Asiyasını birləşdirmək arzu edilərsə bu xilafətpənahilərinin müqəddəs səyinə Hz. Peyğəmbərin ruhunun müvəffəqiyyət qazandıracağı aşkardır. İranlıların unutduqları və ya heç öyrənmədikləri “Dəli Petro”nun vəsiyyətnaməsinin səkkizinci bəndini, “İranı addım-addım parçalayıb zəbt etmək üçün heç bir fürsəti əldən verməmək və Əcəm Körfəzini (Fars körfəzini – Z.V.) də alıb Suriya vasitəsi ilə Hind və Ağ-dəniz (Aralıq dənizi – Z.V.) ticarətini yenidən canlandırmaq lazımdır” yazıldığını şah həzrətlərinə kübar bir şəkildə anlatmaq vacibdir. Təhlükə meydanda ikən boş sözlərə aldanmayıb digər müsəlman xalqlar ilə birlikdə ali xilafətə bağlanıb qulluq etməyin yeganə qurtuluş ümidi olduğunu əcəmlərin (iranlıların – Z.V.) zehinlərinə yerləşdirmək Osmanlı padşahının əmr-i fərmanına bağlıdır, fərman.

*Vaşinqton*
*3 Fevral 1901-ci ildə*

**Əli Fərrux** qulları
Y.PRK.EŞA, 37/36.

*Radd (راد) – rəd etmək deməkdir. Lakin burada qarşılıqlı alış-veriş mənasında işlədildiyini düşünürük.*

## ƏDƏBİYYAT


1. Hussaini M. (2016). II. Abdülhamit Döneminde Afganistan'da İngiltere-Rusya Rekabeti ve Osmanlı Siyaseti (1876-1909). Eskişehir, Magistr işi
2. Sarınay Y., Budak M., Bayır Ö., İzgöer A.Z. (2010). Osmanlı İran İlişkileri, Ankara, BBOA
3. Abdur Rahman Khan "The Iron Amir" - 1880-1901, https://www.globalsecurity.org/military/world/afghanistan/amir-abdur-rahman.htm / 29.01.2020, 15:30.
4. Yazıcı O. (2010). Emir Abdurrahman Han'ın Afganistan'da Merkezi Otoriteyi Tesis Etme Çabaları // Orta Doğu Araştırmaları Dergisi, C.VII, sa.1, Elazığ, Fırat Üniversitesi
5. Saray M. (1981). Dünden Bugüne Afganistan, İstanbul, Boğaziçi yayınları
6. Saray M. (1988).Abdurrahman Han (1844-1901) Afgan emiri (1880-1901) // İstanbul, İ.A., TDV, c. 1
7. Devellioğlu F. (1993). Osmanlıca-Türkçe Ansiklopedik Lugat, Ankara, Aydın Kitapevi Yayınları


## *РЕЗЮМЕ*

***Зульфия Велиева Онлен***

### *Османский архивный документ об Азиатской политике Англии и России в начале XX-го века*

***Ключевые слова:*** *Османская империя, Иран, Афганистан, Россия, Англия, Азиатская политика, архивные документы.*

Статья написана на основе исследования одного материала из османских архивов. Она была написана в 1901 г. послом Османской империи в Вашингтоне Али Фаррух-беем и отправлена османскому султану Абдулхамиду II. В ней обсуждается Азиатская политика Англии и России и подчеркивается необходимость принятия мер против нее. Как известно из истории, Великобритания и Россия долгое время вели военно-политическую борьбу в Центральной Азии, особенно в Афганистане, пытаясь завладеть Индией. Эта борьба в Средней Азии и Афганистане была в центре внимания османского правителя. В этом документе содержатся ряд аспектов, которые представляют интерес для Азербайджанской исторической науки. К примеру, посол в Вашингтоне указывает, что Иран был обманут Англией и Россией, подчеркивает, что их реальная цель – разделение Ирана. Он пишет, что они убедили Иранского шаха в той лжи, что Северный Азербайджан будет оккупирован османами, и этим путем пытаются разжечь конфликт между Ираном и Османской империей. Он также, обращая внимание на проблемы противостояния конфессий, советует османскому правителю, что две страны должны выступать совместно в «Исламской Азии», против конфликтов на религиозной почве.

***SUMMARY***

***Zulfiyya Valiyeva Onlen***

***An Ottoman Archival Document on Asian Policy of England and Russia in the Early 20th Century***

***Keywords:*** *Ottoman Empire, Iran, Afghanistan, Russia, England, Asian Politics, Archive Documents, Abdurrahman Khan.*

The article is prepared on the basis of the study of one document from the Ottoman archives. This document was written by the ambassador of the Ottoman in Washington, Ali Farrukh-bey in 1901, and sent to the Ottoman Sultan Abdulhamid II. The ambassador explains the Asian policies of Britain and Russia and emphasizes that action should be taken against this policy. As is known from history, Britain and Russia had been fighting politically and militarily in Central Asia, especially Afghanistan, for a long time to take over India. This struggle in Central Asia and Afghanistan had been at the center of attention of the Ottoman ruler. This document contains some important points that are of interest to the historians of Azerbaijan, too. For example, the Washington Ambassador points out that Iran was tricked by England and Russia, emphasizing that their real goal is to divide Iran. He writes that Englandconvinced the Iranian Shah of the lie that North Azerbaijan would be occupied by the Ottomans, and in this way it is trying to foment a conflict between Iran and the Ottoman Empire. He also, paying attention to the problems of confrontation between sects, advises the Ottoman ruler that the two countries should act jointly in “Islamic Asia”, against sectarian conflicts.